

*Əlibala Rəhimov,*
*Publisist,*
*”Qızl Qələm” mükafatı laureatı*

# Qurban qəhrəman idi

**Esse**

Zaman atlı olub, biz piyada. Neynəməli, bundan inciməyə, küsməyə nə hacət. Düzdü, mən sizinlə razı, indi yeni texnologiyalar, sosial şəbəkələr bizim həyatımıza daxil olub, bəzən bir-birimizlə görüşməyi, hal-əhval tutmağı da ”unuduruq”, əlaqələrimizi, ünsiyyətimizi elə mobil telefon vasitəsilə qururuq... Amma ötənləri birdəfəlik tüpürcək yağışına tutub, onu kənara tullamaq da insafdan deyil. Nahaq deyilməyib: keçmişə güllə atma, gələcək səni topa tutar.

Yaddaş cədvəlim hələ mənə vəfasızlıq eləməyib. Bir zamanlar gördüyüm canlı hadisələr, qeyri-adi situasiyalar mənimlə sabaha gedir. Və hərdənbir o hadisələri qələmə alanda sakitləşirəm, elə bil dünyanı mənə bağışlayırlar... imkan verin və eşidin məni, qoy gözümlə gördüyüm, canlı şahidi olduğum bir qəribə, gözlənilməz həyat gerçəkliyini sizə nəql edim. Sonra, necə deyərlər, ağa durur, Ağacan durur... Məni hap-gopçulıqda ( Buna Biləsuvarın yaşlı nəsli imkan verməz ) qınağa çəksəniz, yalançı adlandırsanız belə nə küsərəm, nə inciyərəm heç kimdən.

Mıs-mıs kifayətdi məncə, keçirəm Mustafaya... Açıram sandığı, tökürəm pambığı.

Qayıdıram odlu-alovlu, alışıb-yanan cavanlığıma. Yeriyəndə yeri titrədirdim, danışanda göyü. Eşq xəstəliyinə mübtəla olmuşdum, lovğa-lovğa yeriyir heç kimə məhəl qoymurdum. Kimin haqqı nə idi ki, bir sözümü iki eləyə. Dostlarla görüşərkən hərdən tutmacam tuturdu, əllərini elə sıxırdım ki, üz-gözlərini turşudur, ”burax əlimi” deyə qışqırırdılar. Bir sözlə, ”gəl məni gör, dərdimdən öl”, ” Burda mənəm, Bağdadda kor xəlifə”.

Karyeramı soruşmayın. Sayılıb-seçilən vəzifəm var: Biləsuvarın tarixi salnaməsini yazan ”Məhsul” qəzetinin məsul katibi. Püxtələşmiş yazı-pozu əhliyəm. Mərkəzi qəzetlərdə , ”Kənd həyatı”, ”Təşviqatçı” jurnallarında tez-tez yazılarım çap olunur. Zarizofka, oçerk, reportaj, feleyton, hərdənbir maraqlı, rayonda hörmətimi, nüfuzumu qaldıran xəbərlər... Bütün bunlar başqaları bir yana, həmkarlarımı da qıçıqlandırırdı. Üzümə gülsələr də, arxamca şaiyə, böhtanlar nə qədər desən...

Hə yetər məncə özümü öyməyim, sinəmə döyməyim. Göyün yedddinci qatından aşağı düşməyimin vaxtıdır. Karyerama son qoyulacaq deyəsən. Noolub, nə baş verdi birdən-birə?. Kim oldu isti aşıma soyuq su qatan?. Bircə-bircə söyləyim, dərdimi ishar eyləyim, siz də uzağa getməyin, qulaq asın.

Sabah rayonda tədbir olacaq. SSR Ali Soveti Rəyasət Heyətinin sədri Anastos İvonoviç Mikoyan Lənkərandan gəlib Biləsuvardan keçib Bakıya gedəcək. O, burada qarşılanmalı, şərəfinə xoş sözlər eşitməli, böyük təntənə ilə yoluna davam etməlidir. Olduqca çətin situasiya, gərginlik yaşamağa məhkumam. Bilirsiz niyə?. O tədbiri, yəni rəhbəri qarşılama mərasimini yazmağı ”letuçka”da qoydular mənim boynuma. ”Beşdəqiqəlik”dən sonra narahatçılığım birə-beş , nahara getməyi də unutdum. Mən hara, siyasi mövzu hara?. Əlim qələm tutandan kənd təsərrüfatı, sənayə, səhiyyə, təhsil, ticarət sahələrindən maraqlı, qərəzsiz, obyektiv yazılar hörmətimi, nüfuzumu göylərə qaldırır. Yadımdadı, bir dəfə payız şumu aparan traktorçu Həsənin yanında səhərə kimi əyləşdim. Onun ilk sevgisi, ailə vəziyyəti, dostluq, xeyirxahlıq kimi düşüncələrini qələmə aldım və beləliklə əsl zəhmətkeş insan obrazını yaratdım.

İndi isə ağır imtahan. Siyasi mövzu və mənim də əlim üzümdə qaldı. Hara gedim, dərdimi kimə söyləyim?. .

Adətən rəsmi xəbərləri Azərinform (indiki Azər Tac) bizə ötürür və düzdü, yoxsa yalan bu barədə fikirləşmədim, o informasiyanı birinci səhifədə dərc edirik.

Düşüncələr aləminə baş vursam da, qaneedici cavabım müşkülə düşdü. Gündüz qəzet qovluqlarının saralıb-solan vərəqlərini o yan-bu yana çevirsəm də siyasi mövzulu yazıların dönə-dönə oxumağımın faydası olmadı. Yenə qaldım dilema, məchulluq qarşısında...Göz qapaqlarım yumuldu, amma yatmadım. Bəlkə dostlardan birisinə xahiş eləyim, yalvarıb-yaxarım ki, məni əvəzləsin?. Yox, bu mümkün olan fikir deyil. Elə onlar məni pərt eləmək istəmirlərmi?. A.İ.Mikoyanın qarşılanmasını yazacam, heç şübhəsiz, ”quş” buraxacam və ”Qlavlit” ( M K-nın mətbuatda dövlət sirlərini mühavizə edən şöbə) növbəti ay bu barədə xülasə verəcək və yuxarıdan zəng olunacaq redaktora, mən işdən kənarlaşdırılacam. Beləcə, get oğlan, xoş gəldin... Sonra uzaq kənd məktəblərində ədəbiyyat müəllimi işləmək üçün dünən mənə qucaq açan maarif şöbə müdirinin saatlarla qəbulunda dayan.

Nə isə... məsələ var: ”gecənin xeyrindən gündüzün şəri yaxşıdır”. Yenə ümid, yenə kədərdən sonrakı sevinc... Sözü gəlin kimi bəzəyən, onun ətrini duyan bizim zəmanən hansısa şairinin bir bənd şeiri ürəyimin başına yazılır:

Əbülfət, içində dərd, qəm yuvalar,
Həm soyuq, həm isti saysız yuvalar...
Dildə də, gözdə də bircə dua var-
Ondan ümidini gəl, kəsmə, gözəl!.

Şairin fikrinə başqa rakusdan yanaşmaq olmaz!. Ümid, yenə də əbədiyaşar ümid!.

***

Tapşırıq belədir: məktəb uşaqları öndə, idarə və müəssisələrdən gələnlər arxada dayanmalı.Saat 12-də rəhbər gələrkən ”Sov. İKP-ə eşq olsun!”, ” Biləsuvara xoş gəlmişsən A. Mikoyan !” şuarları, rəhbərin portretləri havaya qaldırılmalı, əl çalınmalıdır.

Əlimdə bloknot, qələm. Hazıram bu görüş haqqında qeydlərimi yazam. Bəlkə rəhbər onu qarşılayanlarla görüşdü ?.

Qabaqcadan heç nə demək olmaz!.

Kimsə ucadan qışqırır:

-Catıblar Cəlilabada!

Hə, deməli, ən uzağı 30-40 dəqiqəyə gələcək əziz qonaq...

Hazırlıq, hər kəs yerində olsun, göstərşləri. Yaxınlıqdakı məktəbin direktoru Cəlil ilə salamlaşırıq. Gileylənir:

-Əşi, nəyə lazımdır bu dəm-dəzgah... Hava soyuqdu uşaqları saxlamaq olur?. Dayanmırlar, qaçırlar o yana-bu yana.

Yusif müəllim başını yelləyir:

-İnşa yazdıracadım, ”Cəlil Məmmədquluzadənin dramaturgiyası” mövzusunda...

Suvarma idarəsinin rəisi Yusifzadəyə sataşıram:

-Yaraşıqlı, bər-bəzəkli şuarlarınız var ha!.

Gülür:

-Rəssam çağırmışıq. Pulla yazdırmışıq-deyir.

Həqiqətən hava soyuqdu. Qış tələsmir, öz yerini fəsillərin gözəli bahara vermək istəmir. Səhər-səhər yağış yağdı, yol-riz sudu palçıqdı.

Hə, budu, maşın korteci gəldi. Şüarlar , portretlər havada. Əl çalıb, məhəbbətlərini izhar etdilər rəhbərə.

Bloknotumu dizimə söykəyib, yazıram:

26 mart 1965-ci il. SSR Ali Soveti Rəyasət Heyətinin sədri A.İ.Mikoyan Biləsuvarda!.

O, maşından düşür, hamıya əl eləyir, yumruğunu havaya qaldırıb, azərbaycanca ucadan deyir:

-Yaşasın Azərbaycan Şura Hökuməti!.

Və anidən elə bil göy gurlayır, şimşək çaxdı. Heç kimin gözləmədiyi, xəyalına belə gətirə bilmədiyi situasiya yaşanır. Arxa tərəfdən uzundraz, arıq birisi irəli atılır, əlindəkiəlindəki zənbildən ruçka, mantirovka, boltlar, açarlar, bir sözlə, hər gün sürücülərin işlətdiyi maşın hissələrini qolu tutduqca tolazlayır rəhbərə tərəf, onun maşınının üstünə. Cumur irəli, istəyir boğa, öldürə əziz qonağı. Milislər havadaca qomarlayırlar onu. Bağırtısına hamı məətəl qalır:

-Döyməyin mənə, tutmayın məni, boğacam, öldürəcəm bu daşnaq kopoyoğlunu.

Üst-başından mazut iyi gələn bu şəxsi əlüstü götürürlər.

Kortes yolun davam eləyir. Banı, kopotu, pəncərələri sınıq-sınıq olmuş maşını da aparırlar.

Kimsə deyir:

-Onu tanıyıram. Avtobazada şofer işləyir, ” ZİS-5” maşını sürür. Adı Qurbandı...

O, getdi gedər-gəlməzə. Arxasıncada nə qədər şaiyə, böhtan.

Kimsə deyir:

-Türmədə öldürəcəklər.

Başqa birisi:

-Yox, yox, səhv eləməyin, göndərəcəklər Bayıla-deyir-ordan da ruhu xəstəxanaya.

Kim idi o?. Bəlkə həqiqətən ağlı çaşıb?, ola bilər.

Eləmədim tənbəllik, sabah getdim avtobazaya, öyrəndim ki, Qurban yazığın binəvanın birisidir. Hələ indiyəcən kimləsə sərt danışmayıb, dava-dalaşdan uzaq adamdır... Əslən Bakıdandı. Bizim həmyerlimiz olan bir qızla- Gülsabahla eşq məcərası yaşayıb və o qız onu gətirib kəndlərinə - Əskərabada.

Məlum məsələdi, biz qəzetyin şənbə günü nömrəsinin birinci səhifəsində ”Azərinform”un rəsmi materiallarını çap elədik.

Qurbanın taleyi qaranlıq. O, özünü şüurlu şəkildə atdı çir-thaçırtla yanan tonqalın üstünə. Yanacaq, yoxsa qalacaq, bunu Yaradan bilər.

Bəs dünyaya meydan oxuyan SSR-nin rəhbəri Mikoyandı-Sukayandı, hər kimdisə, onun haqqında nə bilirəm?. Özümə ünvanladığım bu sualın cavabı mübhəm, qaranlıq. Yumruğumu alnıma vururam. Yox, içimdən səs gəlmir. Yaddaş boxcamı ha silkələyirəm, nəticə məchuldu.

Müdriklərdən birinin sözləri iç dünyamdan boy verir: ”Dostunu mənə göstər, sənin kim olduğunu deyim”. Eləmirəm tənbəllik, könül dostum Əlizadə müəllimə zəng eləyib, istəyimi ona açıqlayıram ”Sabaha kimi gözlə” cavabını alıram... Bu da, sabah dostumun, mənə göndərdiyi, rus dilində yazılan ”Ot İlica do İliça ( Vladimir İliç Lenindən Leonid İliç Brejnivədək ) qeydləri. Oxuyuram və tanıyıram A.İ.Mikoyanı.

Onun qısaca avtobioqrafiyası:

13 noyabr 1895-ci ildə Tiflis quberniyasının Borçalı mahalının Sanayı kəndində anadan olub ( indi o yerlər Ermənistana məxsuzdur. Bir az açığı: rusların köməyilə Borçalı-bizim mahalımız veilib o daşnak, məkrli millətə ).

O, 1916-cı ildə Eçmiadzin akademiyasının ilahiyyət fakültəsində oxumuşdur. Uşaqlıq və yeniyetməlik dövründə ”türklər bizim düşmənimizdir” dərsini almış, sonralar 1915-ci ildə türklərə qarşı vuruşmuş və malyariyaya tutulduğu üçün ordudan təxris edilmişdir. Hara getsə yaxşıdır? Bakıya!. Burda başqa bir millətçi-daşnaq Stepan Şaumyanla dostluq etmişdir. O, 1918-ci il mart hadisələrində hərbi hissə komandiri kimi Bakıda qətliamlar törətmişdir.